BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№1 Sosial-siyasi elmlər seriyası 2014*

UOT 101.1:316

# İNTELLEKT SOSİAL-FƏLSƏFİ PROBLEM KİMİ

**S.H.ƏLİYEVA**
***Bakı Dövlət Universiteti***
***Sahibe-eliyeva@mail.ru***

*İntellekt məsələsi, sosial-fəlsəfi problem kimi onun idraki (qnoseoloji), psixoloji təhlili çox mühüm və mürəkkəb məsələlərdən biridir. Belə ki, fikir prosesinin inkişafının getdiyi bir mərhələdə adi şüur səviyyəsindən başlayaraq intellektin formalaşmasına qədər gedən bir yol olduqca mürəkkəbdir. Belə ki, bir insanın şəxsiyyət kimi formalaşmasına, onun intellektual səviyyəsinin inkişafına müxtəlif amillər təsir edir. Məhz məqalədə intellektin bir psixoloji fakt kimi formalaşması, onun idraki cəhətdən dərki məsələsi öz izahını tapmışdır.*

**Açar sözlər:** qnoseoloqiya, koqnitiv, intensional, invariant

Araşdırmalar göstərir ki, bütün fikir proseslərinə müəyyən ümumi cəhətlər xasdır. İbtidai insanın təbiət hadisələri ilə mübarizəyə başladığı andan mürəkkəb və ağır situasiyalarda qərarın qəbul edilməsinə təminat verən koqnitiv (idraki) amillər bilavasitə təkamül prosesinin məhsuludur. Təbiətdə mürəkkəb proseslərin nə ilə nəticələnəcəyini irəlicədən bilmək, onların ziddiyyətli gedişini nəzarətə almaq, sözün əsl mənasında, intellektual fəaliyyətin inkişafının bioloji, sosial və fərdi- psixoloji motivləridir. Həmin motivlərə söykənən proseslərin nə dərəcədə uğurla nəticələnəcəyi təbiət və ictimai hadisələrin mahiyyətinə nə dərəcədə dərin koqnitiv nüfuz edilməsi ilə müəyyən olunur. Koqnitiv proseslərin qərarın qəbul olunması prosesi ilə genetik əlaqəsi təfəkkürün həmişə invariant (dəyişməz) keyfiyyəti kimi çıxış edir. İnsan tərəfindən təbii ətraf aləmin mənimsənilməsindən yaranan yeni keyfiyyət, nəticə etibarilə, onun istifadə etdiyi idraki fəallıq vasitələrinin ictimai-tarixi xarakteri ilə şərtlənir. Həmin prosesdə pozitiv qərarın qəbul olunmasında böyük əhəmiyyət kəsb edən faktor real vəziyyətin adekvat anlayışlarda təsəvvür edilməsidir. Situasiyaların adekvat anlayışlarda səmərəli və sadə üslubda təsvir olunması əslində intellektin və düşüncə tərzinin müəyyən məntiqi məcraya salınması, həmçinin mental xüsusiyyətlərin bu məntiq çərçivəsində formalaşması və təzahürü prosesidir. İntellekt keyfiyyət fenomeni kimi şəxsiyyətin gündəlik fəaliyyətində fikir yürütmək qabiliyyətində təzahür edir. Bu baxımdan yüksək intellektə malik fərdi intellektual şəxsiyyət sayırlar.

Deməli, intellekti insan tərəfindən gerçəkliyin dərk olunmasının əsas keyfiyyət mexanizmi də hesab etmək mümkündür.

Biz intellektin sosial təbiətə malik olması fikrini də söyləyə bilərik. Tədqiqatçı M.A.Xolodnaya hesab edir ki, intellektin təbiətini öyrənmək üçün "İntellekt nədir?" sualına deyil, ilk növbədə "İntellekt öz xüsusiyyətlərinin daşıyıcısı kimi nə deməkdir ?" sualına cavab axtarmaq lazımdır [10, 121-128]. Onun fikrincə, intellektin daşıyıcısı fərdi mental təcrübədir. Bu kontekstdə bizə elə gəlir ki, intellektin təbiətinin dərkində «mentalitet təcrübəsi» anlayışının araşdırılması mühüm metodoloji rol oynayır. Qeyd edək ki, həm intellekt, həm də onun təbiətinin öyrənilməsində zəruri olan mentalitet sosial-psixoloji idrakın müəyyən pilləsini təşkil edirlər. Sosial-psixoloji idrakın dərk olunması olduqca mürəkkəb bir prosesdir. Məsələ bundadır ki, psixoloji reallıq öz sosial mahiyyətindən təcrid olunarsa, eləcə də sosial bütövlüyün psixoloji əsaslarına nüfuz edilməzsə, onun tədqiqi mümkün deyildir. Ümumiyyətlə, sosiallıq istər intellektin, istərsə də mentalitetin təbiətinə, düşüncənin mental strukturlarına xasdır. Sosiallıq konkret cəmiyyətdə ictimai münasibətlərin bu və ya digər xassə və xüsusiyyətlərinin məcmusudur. Sosiallıq elə bir ümumi xüsusiyyətdir ki, o, fərdlərin və müxtəlif qrupların, ictimai münasibətlərin, onların xüsusiyyətlərinin inteqrasiyasının nəticəsi kimi çıxış edir. Müxtəlif sosial oriyentasiyalı fərdlər və qruplar arasında münasibətlərin xarakteri və məzmunu onların cəmiyyətin ayrı-ayrı ictimai strukturlarında tutduqları konkret mövqedən və oynadığı roldan asılıdır. Sosiallıq müxtəlif fərdlərin birgə fəaliyyətinin nəticəsidir [7, 478]. Bu səbəbdən, sosiallıq anlayışı məzmununa görə təbii və bioloji fenomendən daha geniş anlayışdır. Bu mənada sosial psixoloji mühitdə formalaşan intellekti, mentaliteti sosial təbiətsiz təsəvvür etmək mümkün deyildir. Bu mülahizəni geniş kontekstdə götürsək, deyə bilərik ki, anlayışların və kateqoriyaların meydana gəlməsi problemin qoyuluşunun metodoloji şərtidir.

Araşdırdığımız problemə aydınlıq gətirmək məqsədilə biz konkret anlayışlar aparatına müraciət etməliyik. Əgər belə bir definisiyadan çıxış etsək ki, ən ümumi şəkildə intellekt mövcud strukturlar şəklində fərdi mental təcrübənin təşkili formasıdır, onda biz burada mental məkan, mental strukturlar və mental təcrübə anlayışlarını da açıqlamalıyıq.

Mental məkan deyərkən inikasın elə bir subyektiv diapazonu nəzərdə tutulur ki, bunun çərçivəsində müxtəlif fikri «yerdəyişmələr» mümkün olur [3, 385-411]. Mental məkan mental təcrübənin dinamik forması olub, subyektin sosial ətraf aləmlə qarşılıqlı münasibətlərində aktuallaşır. Tədqiqatçı Q.Fokonye «mental məkan» anlayışını elmi dövriyyəyə sosial-həyati təsəvvürlərin və biliklərin təşkili probleminin tədqiqi məqsədilə daxil etmişdir. Onun eksperimentində mental məkanlar informasiya yaratmaq və onları əlaqələndirmək sahələri kimi nəzərdə tutulmuşdur. Bununla əlaqədar düşüncə tərzi üçün xarakterik olan belə bir fakta müraciət edək. Ola bilər ki, söhbət əsnasında həmsöhbətlərdən biri desin: «Əli, təsəvvür et, 1990-cı ildə...» Düşüncə tərzinin bu forması o deməkdir ki, belə məkanın daxilində müəyyən qaydada bir-birləri ilə əlaqəli olan mental obyektlər mövcuddur, başqa sözlə, yaddaşdakı mental

xüsusiyyətlər üzə çıxır. Özü də bu mental obyektlər həmin məkanın bilavasitə münasibətlərdə olan elementləri, yaxud personajlarıdır. Ayrı-ayrı məkanlar nisbi müstəqil olsalar da, bir məkandan digərinə informasiyanın ötürülməsi yolları da istisna olunmur. Səciyyəvi cəhət budur ki, mental məkanlar real təcrübədə alternativ reallığı qurmaq üçün mühüm ilkin şərtdir. Burada modelləşdirmə mülahizələrinə üstünlük verilir, yəni yeni bir reallıq haqqında düşünərkən və təsəvvüründə onun obrazını yaradarkən, insandan məkanı formalaşdırmaq, onun obrazını yaratmaq qabiliyyəti, hər məkan üzrə bilikləri düzgün paylaşdırmaq bacarığı tələb olunur. Belə bir keyfiyyət sosial yaddaşın biliklərini canlandırmağa, həmin biliklərin düşüncədə kök saldığı səbəblərini öyrənməyə kömək edir. Bu, sözün əsl mənasında intellektual fəaliyyətdir, real hadisələrin subyektiv mənzərəsini yaratmaq prosesidir. Başqa sözlə, həyatı problemləri subyektiv meyarlar, fərdi ölçülər kontekstində görmək, özü də intellektin gücü sayəsində dərk etmək mental təcrübə toplamaq formasıdır. Sosial gerçəklikdə hadisələr dəyişdikcə mentalitetdə formalaşmış obrazlar da dəyişir. Geniş kontekstdə götürülsə, sosial proseslərin subyektiv obrazını yaratmaq qabiliyyəti mentalitetin formalaşmasında müstəsna əhəmiyyət kəsb edir. Sosial hadisələrin insan tərəfindən necə görüldüyünü və duyulduğunu özündə ehtiva edən bu obrazlar mental təcrübənin məzmununu daha da zənginləşdirir. Bütövlükdə sosial idrak prosesi olan bu faktor mental təcrübənin intellektual fəaliyyətdə xüsusi dəyərini şərtləndirir. Bəlkə də bu səbəbdən, J.Piaje hesab edir ki, intellekt ən təkmil psixi adaptasiyadır, o həmçinin çevik və eyni zamanda davranışın dayanaqlı tarazlığıdır [7, 65].

Belə bir məqamı da qeyd edək ki, insanın sosial-intellektual imkanları ic-timai- münasibətlər mühitində fəaliyyət göstərən fərdlərin çoxlu sayda müxtəlif ideyaları, obyektiv təsəvvürləri yaratmağa meylli olması ilə sıx bağlıdır. İnsanı sosial varlıq statusunda təqdim edən ən mühüm ictimai keyfiyyətlərdən biri budur. Bu mənada mental təcrübə insanın sosial mühitə idraki münasibətinin əsasında duran subyektiv-fərdi, sosial-psixoloji vəziyyətlərin sistemidir. Həmin mental təcrübə əslində obyektiv reallıq mənasında fərdilikdir [4, 5-15]. Müasir psixologiyada, ümumiyyətlə, humanitar elmlərdə, mentalitet problemi az öyrə-nildiyindən bu sahədə görülən işlər hazırda kifayət qədər deyildir. Biz hesab edirik ki, bu gün cəmiyyət üzvləri sosial-siyasi hadisələri daxilən "görmək" qabiliyyətinin formalaşmasına, subyektiv idrak mexanizmlərinə yiyələnməyə dərin ehtiyac duyurlar. Bunu nəzərə alan tədqiqatçılar, bizcə, intellektlə bağlı bir neçə aktual problemləri qoya və həll edə bilərlər.

Belə aktual problemlərdən biri təcrübə kateqoriyasıdır. Sosiologiya və fəlsəfə elmində təcrübə biliyin, vərdişin, hissin və iradənin vəhdəti olan insan fəaliyyətinin bütövlüyünü və universallığını ehtiva edən kateqoriya kimi izah olunur, sosial, tarixi, mədəni irsin ötürülməsini xarakterizə edən mexanizm kimi başa düşülür. Bəzi tədqiqatçılar təcrübəni yalnız biliklərə, bacarığa və vərdişlərə müncər edirlər. Hər halda, hakim ideya bundan ibarətdir ki, təcrübə subyektin aləmlə qarşılıqlı idrakının təşkilində mühüm rol oynayır. Lakin bunu da qeyd etmək lazımdır ki, həyat fəaliyyətinin heç də birmənalı olmayan

məqamlarını özündə ehtiva edən təcrübə intellektual fəaliyyətə həm müsbət, həm də mənfi təsir göstərir. Biz problemlə bağlı mental təcrübənin sosial-psixoloji modelini verməyə çalışacağıq. Mövcud metodoloji imkanlarından çıxış edərək deyə bilərik ki, mental təcrübənin əsas funksiyası toplanmış informasiyanı yaddaşda saxlamaq, nizama salmaq və dəyişdirməkdir. Onun strukturunu belə müəyyən etmək olar:

**1. Koqnitiv (idraki) təcrübə.** Bunun məqsədi idrak subyektinin əhatəsində baş verənlərin qanunauyğun, dayanaqlı aspektlərini onun şüurunda, yaddaşında həkk etdirməkdir. Başqa sözlə, bu növ təcrübənin başlıca təyinatı ətraf mühitin bütün səviyyələrdə düşüncəyə təsiri barədə cari, aktual informasiyanı operativ surətdə işləməkdir. İnformasiyanın işlənməsi prosesi özlüyündə intellektual fəaliyyətin mahiyyətinin başa düşülməsində və mental keyfiyyətlərin rolunun aşkarlanmasında mühüm amildir. Digər tərəfdən, sosial idrak prosesində təfəkkürün struktur elementinə çevrilmiş informasiya fərdin intellektual resurslarının göstəricisi rolunda çıxış edir.

**2. İntensional təcrübə.** Bu, şəxsiyyətin mentalitetində fərdi intellektual meyllərin mövcudluğundan xəbər verir. Bu təcrübənin təyinatı müəyyən predmet sahəsi üzrə subyektiv meyarları, həll axtarışlarının istiqamətlərini, informasiya mənbələrini və onların işlənməsi formalarını müəyyənləşdirməkdir. Belə bir təcrübəyə söykənərək reqlamentləşdirilmiş situasiyalarda normativ vəzifələrin həllinə, qeyri-standart fəaliyyət sayəsində yeni ideyaların əldə edilməsinə, yeni biliklərin və vərdişlərin mənimsənilməsinə nail olmaq mümkündür.

Insan intellektinin və mentalitetin təbiəti təkcə sırf aktual təcrübə ilə deyil, şüurun və təfəkkürün arxetipləri ilə də izah olunmalıdır. Arxetiplər bizim həyat tərzimizi müəyyənləşdirir və sanki gözə görünmədən tipik davranışın alqoritmlərini vermiş olur. Həyat tərzinin böhranlı anlarında onlar olduqca fəallaşır və şüur qatından çıxaraq bizim davranışımıza nəzarət edirlər [6, 8]. Mentalitet və onu tarixən müəyyənləşdirmiş arxetiplər məhz şüur qatında yerləşdiyindən və görünməz olduğundan onların rasional ölçülərdə öyrənilməsi də çox çətindir. Əgər insan intelliktinin formalaşmasında mühüm rol oynayan mental təcrübələrin mahiyyəti dərindən tədqiq edilsə, aydın olar ki, insan davranışı konkret situasiyalara uyğun olaraq baş verir. Ona görə ki, davranışımız çox hallarda mentalitet baxımından standart, yəni arxetipik xarakter daşıyır. Arxetip anlayışını K.Yunq özünün «Analitik psixologiya» əsərində (1919) işlətmişdir. Yunq kollektiv təhtəlşüurun arxetipini şəxsiyyətin təhtəlşüurunda yerləşən «komplekslərdən» fərqləndirir, çünki bu «komplekslərə» şüurdan sıxışdırılmış təsəvvürlər daxildir [11, 133-152]. Arxetip nəsli təcrübənin qısa formada yazıldığı koqnitiv strukturdur. Çox maraqlıdır ki, hər bir millətin nümayəndəsi tipik həyat situasiyalarında kollektiv stereotipə uyğun hərəkət edir, yəni mənsub olduğu xalqın həyat tərzinə uyğun davranır. Bu cür arxetipik həyat norması ilə nizamlanmış intellekt və şüurlu həyat tərzini ənənə formalaşmış mentalitet hüdudları ilə məhdudlaşdırır. Başqa sözlə, davranışda üzə çıxan mental normalar intellektdə və şüurda həkk olunur və tipik

situasiyalarda təzahür edir.

Mexanizmləri mənimsənilmiş biliklər məkanında üzə çıxan intellekt həmişə o anda təzahür edir ki, artıq biliyin hökmranlığına son qoyulur. Başqa sözlə, intellekt situasiyanın obrazı olaraq yaddaşın mənimsənilmiş biliklərini ümumiləşdirmək və təşkil etmək kimi xüsusi koqnitiv prosesə çevrildiyi zaman təzahür edir. Beləliklə, intellektin təbiəti məsələsini biliyin məzmununun dəyişmə effektinin təhlili məcrasında deyil, daha çox həmin effekti təmin edən koqnitiv mexanizmlərin analizi səviyyəsində araşdırmaq lazımdır. Çünki psixologiya elmi çoxdan sübut etmişdir ki, hər bilikli şəxs ağıllı deyil, ağıllı adam bilikləri mənimsəmə, təşkiletmə və tətbiqetmə mexanizmlərinin formalaşdığı şəxsdir. Deməli, intellekt fenomenal təbiətə malikdir. Başlıca məsələ bundadır ki, düşüncə mexanizmlərinin formalaşması və bunların vasitəsilə fikir əməliyyatlarının aparılması bacarığına yiyələnmə «təfəkkürü varlığa münasibətdə azad edir». Vaxtilə Y.J.Piaje qeyd etmişdir ki, intellektin inkişafında iki əsas xətt mövcuddur. Birincisi, fikri əməliyyatlarda iştirak edən idraki strukturların inteqrasiyası, ikincisi isə gerçəklik haqqında təsəvvürlərin invariantlığı ilə bağlıdır [7, 41-79]. Sosial idrak prosesi belədir ki, həmişə inkişafın erkən mərhələsindən sonrakı mərhələlərə keçid yeni yaranan strukturların üzvi hissəsi olan əvvəlki idraki strukturların xüsusi inteqrasiyası vasitəsilə baş verir. Bu, erkən, hər şeyi özündə ehtiva edən (inteqrasiya edən) xüsusi idraki strukturdur. Bunsuz intellektual inkişaf mümkün deyildir. Lakin analiz göstərir ki, bir çox yaşlı adamlar gerçəklik hadisələrini qavrayarkən uşaqlıq dövrünün psixologiyasının ünsürlərini nümayiş etdirirlər: eqosentirizm mövqeyindən mülahizə yürüdürlər.

İntellektin formalaşması təfəkkürün mental keyfiyyətlərinin yaranması və formalaşması prosesidir. Təbii ki, intellektin formalaşmasını informasiyasız təsəvvür etmək mümkün deyildir. Buna görə də, onun mühüm funksiyalarından biri informasiyanı işləməkdir. Lakin intellektin yüksək inkişaf səviyyəsi daha çox sosial-psixoloji davranışın fəallığının tənzimləməsində təzahür edir. Təfəkkürün və davranışın bir çox mental xüsusiyyətləri də bu prosesdə üzə çıxır. İrəlicədən qeyd edək ki, şəxsiyyətin daxili aləmi onun intellektinin sosial-psixoloji məkanıdır. Obrazlı desək, insan öz aləminə daxili aləmin «girməsinə» imkan verir və bu aləmi özlüyündə rasional dərk etməyə çalışır ki, məkanda özünün həyatını düzgün qursun. Əgər bu mülahizəyə sağlam düşüncə fəlsəfəsindən yanaşsaq, deməliyik ki, düzgün qurulmuş o həyatdır ki, insana fərdi sosiomədəni dəyərlərdən real istifadə etmək imkanları verir. Məhz buna görə də, insanın intellekti və şüuru daim xarici aləmlə yaradıcı təmasda olmalıdır. Bizim qeyd etdiyimiz sosial-psixoloji mexanizmin özü olduqca mürəkkəb və rəngarəng fenomendir, çünki o, daim dəyişmədə, dinamikadadır. Transformasiya prosesləri göstərir ki, bu gün bərqərar olmuş sosial reallıqlar insanın iradəsindən asılı olmayaraq, tamamilə yeni problemlər meydana gətirir, dünən hakim kəsilmiş ideyalar bu gün rədd edilir; xarici aləmin qeyri-müəyyənliyi, xüsusilə etiraf edək ki, müasir cəmiyyətdə transformasiya proseslərindən irəli gələn qeyri-müəyyənlik totalitar rejimdə formalaşmış daxili aləm tərəfindən

çox çətinliklə qavranılır, aktual şüur böyük təzadlarla üzləşməli olur [1, 41-53]. Lakin sosial reallıqların dərki prosesində şüurun özü informasiyanı modelləşdirərkən, təhlil edərkən və qərar qəbul edərkən düzgün model yaradana kimi çoxlu səhvlərə yol verir. Həmin şəhvlərin kökü bundadır ki, informasiyanı şüur öz seçimi ilə qəbul edir, yəni o bu zaman sanki artıq ilkin qərar qəbul etmiş olur, məlum informasiya dolayısı yolla qərarın tərkibinə daxil olur.

Deyilənlər əsasında biz hesab edirik ki, sosial reallığın şüur və mental potensialını əhatə edən psixoloji məkanda model və layihələr qurarkən bunlar nəzərə alınmalıdır: 1) şüur həmin model və layihələri ona görə təhrif edir ki, o aləmi fraqmentar şəkildə əks etdirir; 2) təhtəlşüuru ona görə təhrif edir ki, həmin model və layihələrə «öz materialını» obyektivasiya qanununa görə daxil edir. Təbii ki, biz mülahizələrimizə imperativ xarakter vermək fikrindən uzağıq. Məlum olduğu kimi, düşüncənin mental xüsusiyyətlərinin, bütövlükdə mentalitet probleminin öyrənilməsində müstəsna rol oynayan şüur, fövqəlşüur, təhtəlşüur, dərkedilməmiş anlayışlar ətrafında mübahisələr bu gün də səngimir. Elm sahələri, şüur anlayışına müxtəlif mənalar gətirir, beləliklə, o, özünün müxtəlif çalarlarında təzahür edir. Lakin bir problem aktuallığını saxlamaqdadır: şüur və təhtəlşüur anlayışlarını eyni dərəcədə başa düşmək vacibdir, çünki şüur anlayışında eyni zamanda «mən»in nəzərdən keçirdiyi məzmun qalır. Mentalitetin mahiyyətinə daha dərindən nüfuz etməkdə İ.Kantın kəlamı öz əhəmiyyətini bu gün də saxlamaqdadır: «Şüur» əslində «mən»də yerləşən başqa təsəvvür haqqında təsəvvürdür» (5, 680-692). Ona görə də, şüurda iki aktual modelin – daxili (arzu edilən) və xarici (qavranılan) modellərin məzmunu müəyyən nisbətdə ifadə olunur, insan isə burada qavranılanı arzu olunana çevirməyə çalışır. İnsan üçün həyatın mənası, yaxud mənasızlığı məsələləri də şüurun məhz bu sosial-psixoloji kontekstində açılır, «niyə yaşayıram», «nə üçün yaşayıram» problemləri üzərində düşüncələr, həmin prosesdə şüurun mental xüsusiyyətlərinin rolu bu məcrada, yəni «Mən»in araşdırılmasında təzahür edir [2, 30-32].

Beləliklə, şəxsiyyətin sosial-psixoloji məkanında şüurda «mən»in qarşısında iki informasiya qütbü durur: arzu edilən və qavranılan, yəni şüurlu «mən»in məzmunu və xarici aləmin bilikləri durur, «mən»lə aləmin qarşılıqlı təsiri prosesi gedir. Yeri gəlmişkən, bu proses avtomatizmə keçdikcə, artıq insan özünə nəzarət edə bilmir, şüur özünün aşağı səviyyələrinə enir, təhtəlşüurda arxetiplər önə çıxır, insanı tipik həyat situasiyalarında standart davranış hərəkətlərinə sövq edir. Bu baxımdan mentalitetin öyrənilməsi üçün təhtəlşüurda yerləşən və həyat tərzinin tərkib hissəsi olan arxetiplərin rolu böyükdir. Bu sivilizasiya və mədəniyyətlə bağlı problemlər baxımından nisbətən az öyrənilmiş sahədir. Biz deyərdik ki, «daxili aləm və mentalitet» probleminin yetərincə öyrənilməməsi, ictimai, humanitar elmlərin inkişafına müəyyən mənada məhdudlaşdırıcı təsir göstərmişdir. Məhz bu faktor mentalitetə dair nəzəri axtarışların dərinləşdirilməsini daha da aktuallaşdırır.

Beləliklə, ibtidai sosial intellektin inkişafı mental təcrübənin təşəkkülü ilə paralel getmiş, insan şüurunun formalaşmasının ilkin mərhələsini təşkil etmiş,

gələcək mədəniyyətin yaranması üçün ilkin intellektual baza olmuşdur.


### ƏDƏBİYYAT

1. Банс В. Элементы неоределенный в переходной период// «Полис», 1993, №1, с.41-53.
2. Давыдов Ю. Этика любви и метафизика своеволия. М.: Молодая гвардия,1982, 287 с.
3. Дисмор Дж. Ментальные пространства с функциональной точки зрения// Язык и интеллект. М.: Прогресс, 1996, 512 с.
4. Каган М.С.,Эткинг А.М. Индивидуальность как объективная реальность// «Вопросы психологии», 1989, №4, с.5-15.
5. Кант И. Архитехтоника чистого разума / Соч. в 6-ти т. Т.3, М.: Мысль, 1964, 799 с.
6. Кулиев Г.Г. Архетипичные азери: лики менталитета. Баку: «Йени нясил», 2002, 248 с.
7. Пиаже Ж. Психология интеллекта // Избранные психологические труды. М.: Просвещение, 1969, 206 с.
8. Российская ментальность. Материалы «Круглого стола» // «Вопросы философии», 1994, №1, с. 3-21.
9. Рубинштейн С.Л. Принципы и пути развития психологии. М.: Наука, 1959, 118 с.
10. Хододная М.А. Психология интеллекта. СПБ.: Питер, 2002, 272 с.
11. Юнг К.Г. Об архетипах коллективного бессознательного// Вопросы философии, 1988, №1, с.133-152.


## ИНТЕЛЛЕКТ КАК СОЦИАЛЬНО-ФИЛОСОФСКАЯ ПРОБЛЕМА


**С.Г.АЛИЕВА**



**РЕЗЮМЕ**

Интеллект, раскрывающий суть когнитивного процесса охватывает все психологические элементы. В статье рассматриваются все элементы, влияющие на формирование менталитета. Рассматриваются методы организации ментального опыта, а также когнитивный опыт ментальной структуры. Раскрывается ментальный опыт и интенсиональная суть интеллекта.



**Ключевые слова:** гносеология, когнитивная, интенсионал, инвариант


## INTELLECT AS A SOCIAL AND PHILOSOPHICAL PROBLEM


**S.H.ALIYEVA**



**SUMMARY**

Intellect, disclosing the essence of the cognitive process embraces all psychological elements. The article studies all the elements, influencing to the formation of mentality and the organization of the forms of mental experience.



**Key words:** gneseology, cognitive, intentional, invariant